www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1752) 15 iyul 2022-ci il

Təntənəli “Məzun günü” mərasimi keçirildi

Azərbaycan Tibb Universitetinin 1231 məzunu insanların sağlamlığının keşiyində dayananların sırasına qoşuldu

səh. 2-3

İlk dəfə iki ixtisas üzrə magistr buraxılışı olub

səh. 4

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin nümayəndə heyəti qonağımız olub

səh. 4

“Mən bunu necə edirəm” layihəsinin 17-ci kursu baş tutub

səh. 5

Gələcək tədqiqatçıların yolu Tələbə Elmi Cəmiyyətindən keçir

Müşfiq Həsənov: Tələbələrlə ardıcıl iş aparılır, müəllimləri həvəsləndirmək üçün isə təqaüd təklifi irəli sürülüb

səh. 5

Yastıpəncəlilik müalicə olunan patologiyadır

Dosent Paşa Mehdiyev deyir ki, dar və hündürdaban ayaqqabılar da yastıpəncəliliyə səbəb ola bilər

səh. 6

Hər kəs saç əkdirə bilərmi?

Mütəxəssis saçtökülmənin səbəbləri, tipləri və çıxış yollarını açıqlayır

səh. 7

Müharibənin yaralarını sağaldanlar

Oktay Mehtiyev: Azərbaycan Könüllü Həkimlər Assosiasiyası bu gün də şəhid ailələri və qazilərin xidmətindədir

səh. 6

Təntənəli “Məzun günü” mərasimi keçirildi

Azərbaycan Tibb Universitetinin 1231 məzunu insanların sağlamlığının keşiyində dayananların sırasına qoşuldu

İyunun 30-da Azərbaycan Tibb Universiteti buraxılış tələbələrinin təntənəli “Məzun günü” mərasimi keçirildi. Həyəcan, sevinc, bir az da kədər... Universitetlə vidalaşan gənclərin baxışlarından ilk növbədə bunlar oxunurdu. Təhsil müddətini başa vurmaq sevinci ilə çulğalaşmış sabahın həkimlik fəaliyyəti həyəcanına “o mehriban, o əziz tələbəlik illərinin” bir də geri qayıtmayacağı kimi kövrək duyğular da qarışmışdı.

ən qabaqcıl universitetlərindən biri olan Azərbaycan Tibb Universitetinin xoş gününə toplaşdıqlarını xatırlatdılar: “ATU ənənəsinə sadiq qalaraq özünün növbəti məzunlarını müstəqil həyata yola salır. Siz məzunlar 6 il əvvəl tələbə adı qazanarkən nə qədər həyəcanlı və sevincli idinizsə, bu gün tələbəlik illəri ilə vidalaşarkən də bir o qədər həm sevincli, həm də həyəcanlısınız. Çünki universiteti tərk edib həkim ordusu sıralarına qoşulursunuz.

Azərbaycan Tibb Universiteti gündən-günə gözəlləşir və daha müasir bir elm ocağına çevrilir. Son illər universitetimizdə aparılan islahatların nəticəsi olaraq bir sıra uğurlara imza atmışıq. Bunlardan biri də universitetimizin 2022-ci ildə beynəlxalq akkreditasiyadan uğurla keçməsidir. Bu münasibətlə bir daha məzunlarımızı təbrik edir, onlara gələcək həkimlik fəaliyyətlərində uğurlar arzulayırıq”.

“Tələbəlik həyatı şirinliyi və çətinliyi ilə xatırlanacaq”

Təbrik nitqi ilə çıxış edən səhiyyə naziri Teymur Musayev “Məzun günü”nün gələcəyin həkimlərinin yaddaşında gözəl bir gün kimi qalacağını bildirdi: “Məzunlarımıza arzularının reallaşdığı bu möhtəşəm tədbirdə səhiyyə ictimaiyyəti adından “aramıza xoş gəldiniz” deyirəm. Sizlərə peşə rifahı, xoşbəxtlik və firəvanlıq arzu edirəm. Bugünkü tədbir həm məzunların, həm də onların valideynlərinin yaddaşında ömür boyu qalacaq. Məzunlar doğma universitetdəki təhsil illərini tələbəlik həyatının şirinliyi və bütün çətinlikləri ilə birgə daim xatırlayacaqlar. Diplomu alacağınız anı, ixtisaslı mütəxəssis kimi fəaliyyətə başlayacağınız günü necə səbirsizliklə gözlədiyinizi çox yaxşı anlayıram. Mən özüm də 1993-cü ildə Azərbaycan Tibb Universitetinin məzunu olmuşam və bununla fəxr edirəm. Pedaqoji kollektivə yeni nəsil həkimlərin yetişdirilməsində böyük zəhmətlərinə görə xüsusi minnətdarlığımı bildirirəm. Azərbaycanın ilk ali məktəblərindən biri olan Azərbaycan Tibb Universiteti demək olar ki, bir əsrə yaxın müddətdə səhiyyə müəssisələri üçün yüksək ixtisaslı həkim kadrları yetişdirib, bununla da əhalinin sağlamlığının qorunmasına mühüm töhfələr verib. Bu gün bizim üçün əlamətdar gündür. Səhiyyəmiz Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq yeni bacarıqlı gənclərlə, yaradıcı qüvvələrlə zənginləşir”.

Nazir Azərbaycanda səhiyyə sahəsindəki problemlərə həmişə dövlət tərəfindən xüsusi diqqət yetirildiyini xatırladaraq dedi: “Müasir Azərbaycan cəmiyyətinin digər sahələrində olduğu kimi, səhiyyənin də inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider əhalinin sağlamlığının qorunmasını ölkə siyasətində ən prioritet məsələlərdən biri hesab edirdi. Bu gün ulu öndərin davamçısı olan Prezident İlham Əliyev də respublikamızın sosial-mədəni həyatını hər zaman diqqətdə saxlayır. İxtisasca həkim olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tibb təhsilinin inkişafındakı diqqət və qayğısı da əvəzsizdir”.

Son illərdə ATU-nun xarici ölkələrin qabaqcıl təhsil müəssisələri ilə əlaqələrini genişləndirdiyini söyləyən T.Musayev, yüksək səviyyəli tədris sisteminin tətbiqi ilə tələbə və müəllim mübadiləsinin artdığını diqqətə çatdırıb. “Bütün görülmüş işlərin nəticəsində Azərbaycan səhiyyəsi tarixində ilk dəfə olaraq ATU-nun tədris proqramları beynəlxalq akkreditasiyadan keçib. Əminəm ki, sizlər hər bir vətəndaşımız üçün sağlam və uzunömürlü həyatın təmin edilməsində bələdçilik edən işıq olacaqsınız” - deyən nazir məzunları bir daha təbrik etdi.

“Siz qalib ölkənin vətəndaşları olaraq daha şanslısınız”

Universitetin rektoru, professor Gəray Gəraybəyli çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycanda həkim və müəllimlərin rolunu yüksək qiymətləndirdiyini, ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin fərqlənən tələbələrə daim diqqət və qayğı göstərdiyini xüsusi vurğuladı. Yüksək balla universitetimizə qəbul olunan tələbələrin Prezident təqaüdü ilə mükafatlandırılmasını bu diqqət və qayğının bariz nümunəsi kimi səciyyələndirdi.

O, gələcəyin həkimlərinə karyeralarında uğurlar diləyərək, ATU-nun məzunu adını hər yerdə uca tutmağı arzuladı: “Hər birinizi 2 illik fasilədən sonra Azərbaycan Tibb Universiteti üçün ənənəvi olan buraxılış gecəsində salamlayıram. Səhiyyə nazirimiz hörmətli Teymur müəllimə tədbirimizə qatıldığına, hər zaman universitetimizə göstərdiyi diqqət və qayğıya görə hamımızın adından dərin təşəkkürümü bildirirəm. Əziz məzunlar, 6 il bundan əvvəl siz ilk dəfə olaraq Azərbaycan Tibb Universitetinin auditoriyalarına qədəm qoydunuz. Bu 6 il kimin üçünsə çox tez, kimin üçünsə bir qədər gec ötüb keçdi. Artıq bu gün Tibb Universitetinin məzunlarısız. Qeyd etmək istərdim ki, siz qalib ölkənin vətəndaşları olaraq, əvvəlki illərin məzunlarından daha şanslısınız. Bilirsiniz ki, rəşadətli ordumuz Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın işğalda qalan torpaqlarımızı azad etdi. Vətən müharibəsində ATU-nun 18 məzunu şəhidlik zirvəsinə ucaldı. Allahdan onların hər birinə rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İnanıram ki, gələcək fəaliyyətinizdə hər zaman həkim adınızı, ATU-nun adını, eləcə də Azərbaycan dövlətinin, Azərbaycan xalqının adını uca tutacaq, bir çoxunuz azad olunmuş torpaqlarımızda tikilməkdə olan yeni tibb müəssisələrində çalışacaqsınız”.

(davamı səh. 3-də)

Təntənəli “Məzun günü” mərasimi keçirildi

Azərbaycan Tibb Universitetinin 1231 məzunu insanların sağlamlığının keşiyində dayananların sırasına qoşuldu

(əvvəli səh. 2-də)

Universitetin Tədris şöbəsinin müdiri Kamandar Yaqubov 2022-ci il məzunlarına həkim adının verilməsi ilə əlaqədar müvafiq əmri oxuduqdan sonra, Hərbi tibb fakültəsini fərqlənmə diplomu ilə bitirən, müdafiə naziri Zakir Həsənovun əmri ilə birbaşa baş leytenant rütbəsi alan Cavid Heybətovun cümlə-cümlə oxuduğu Həkim Andını təkrarlayan məzunlar xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanacaqlarına söz verdilər.

Təhsilini əla qiymətlərlə başa vuran məzunlara, həmçinin Azərbaycan Tibb Universitetinin ictimai həyatında fəal iştirak edən gənclərə diplomlar və fəxri fərmanlar səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru Gəray Gəraybəyli tərəfindən təqdim olundu.

Daha sonra ATU-nun professor-müəllim heyəti və valideynlər məzunları təbrik edərək, onlara göstərilən etimadı gələcək peşə fəaliyyətlərində doğruldacaqlarına inandıqlarını söylədilər.

“Azərbaycan həkimlərinin şöhrəti bütün dünyaya yayılıb”

Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev təbrik çıxışında öncə xalqımızın zəfər marşından söhbət açaraq ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini layiqincə yerinə yetirən möhtərəm prezidentimizin bizi qınaqlardan qurtardığını və Vətənimizin dilbər guşəsi olan Qarabağımızın özümüzə qaytarıldığını söylədi. Qeyd etdi ki, hər bir insan müəyyən axtarışda olduğu üçün uşaqlıqdan gələcəyi haqqında fikirləşir: “Düşünürəm ki, siz də öz seçiminizi edərək həkim olmaq istəmisiz. Bu gün Azərbaycan həkimlərinin şöhrəti bütün dünyaya yayılıb. Azərbaycan səhiyyəsinin hətta ən ucqar kəndlərin müxtəlif tibb məntəqələrində yaratdığı şərait inkişaf etmiş ölkələrin tibb müəssisələrində yaradılan şəraitlə müqayisə oluna bilər. Azərbaycan Tibb Universiteti isə tarixən çox şöhrətli ali məktəb olub. Elə indi də dünyada tanınan universitetlərdən biridir”.

Böyük türk mütəfəkkirlərindən birinin “şagirdlər qəlb evinin parlayan çırağıdır, ustadını ötən şagird ustad bayrağıdır” kəlamını xatırladan professor, bu nöqteyi-nəzərdən gənc mütəxəssislərin müstəqil həyatda böyük uğurlara imza atacaqlarına inandığını bildirərək, onlara uğurlar dilədi.

Tədbirdə Azərbaycan Tibb Universitetində yerli tələbələrlə yanaşı, 50 müxtəlif ölkədən - Türkiyə, İran, İordaniya, Suriya, İraq, Pakistan, Sudan, Rusiya Federasiyası, Yəmən, Fələstin, Əfqanıstan, İsrail, Misir, Nigeriya, Hindistan, İsveç, Ukrayna, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Finlandiya, Livan, Liviya, Çin və s. ölkələrdən çoxsaylı xarici tələbənin də təhsil aldığı vurğulandı. Bildirildi ki, universitet rəhbərliyi başda olmaqla professor-müəllim heyəti onlara xüsusi qayğı ilə yanaşır, həkim kimi yetişmələrində əllərindən gələni əsirgəmirlər.

“Gülərüz, çalışqan, savadlı, mərhəmətli və vicdanlı həkim olun”

Əcnəbi tələbələr adından çıxış edərək bu əlamətdar günü tələbəliyin son günü, həkimlik həyatının başlanğıcı adlandıran Türkiyə vətəndaşı Nevruz Altekin tələbəlik illərinin onlara çox şey, ən əsası da, məqsədə nail olmaq üçün daha çox çalışmağı öyrətdiyini diqqətə çatdırdı. O, universitetin rektoruna, prorektorlara, dekanlara, dekan müavinlərinə, bir həkim kimi yetişmələrində danılmaz və əvəzedilməz rolu olan, öz bilik və təcrübələrini tələbələrdən əsirgəməyən müəllimlərə, həmişə arxa-dayaqları olan, onlara hər zaman güvənən valideynlərə bütün məzunlar adından təşəkkürünü bildirdi. Məzun dostlarının hər birinə səbrli, gülərüz, çalışqan, savadlı, mərhəmətli və vicdanlı həkim olmağı arzuladı.

Ənənəyə görə, tələbəlik estafeti olan lanset, stetoskop və ağ xalatı I kurs tələbəsi, Prezident təqaüdçüsü Zeybə Zeynallıya I Müalicə-profilaktika fakültəsinin məzunu, Prezident təqaüdçüsü Leyla Gəncəliyeva təqdim etdi.

Valideynlər adından məzunları təbrik etmək üçün söz I Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən Zeynəb Qəhrəmanovanın atası, həkim Hafiz Qəhrəmanova verildi. Bu elm ocağını bitirsə də, tədbirdə bir həkim kimi yox, valideyn kimi çıxış etdiyini, qürur hissi keçirdiyini söyləyən H.Qəhrəmanov bildirdi ki, həkim olmaq şərəfli və məsuliyyətli bir peşəyə sahib olmaq deməkdir: “Çünki insan sağlamlığı hər şeydən önəmlidir. Elmi-texniki tərəqqi elə sürətlə inkişaf edir ki, 5-10 il bundan əvvəlki standartlarla indiki göstəricilər uyğun gəlmir. Bu tendensiya tibb sahəsində özünü daha aydın göstərir. Bunun üçün sizin öz doğma ocağınız olan Tibb Universitetində son illər çox gözəl şərait yaradılıb”.

Bundan sonra ATU-nun himnini səsləndirmək üçün II Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən məzunlar səhnəyə dəvət olundu.

Ardınca Hərbi tibb fakültənin məzun tələbələri təntənəli surətdə sıra keçidi etdilər. Xatırladaq ki, Azərbaycan Tibb Universitetində 2000-ci ildən ulu öndərimizin qərarı ilə Hərbi tibb fakültəsi fəaliyyətə başlayıb. Məzun hərbi həkimlər və feldşerlər Vətən müharibəsində də böyük qəhrəmanlıq göstəriblər.

Bununla da Azərbaycan Tibb Universitetinin 2022-ci il buraxılışına həsr olunmuş təntənəli tədbirin rəsmi hissəsi başa çatdı.

Qısa fasilədən sonra bədii proqramla davam edən tədbirdə ATU-nun tələbələri tanınmış sənət adamları ilə eyni səhnəni bölüşdülər. “Çinar” rəqs ansamblının və “Şəfa” xalq çalğı alətləri ansamblının üzvləri gözəl musiqi, rəqs nümunələri ilə, Hərbi tibb fakültəsinin tələbələri isə gənclərimizə mübarizlik, vətənpərvərlik ruhu aşılayan mahnılarla mərasimə xüsusi rəng qatdılar.

Məlumat üçün bildirək ki, bu il Azərbaycan Tibb Universitetini I Müalicə-profilaktika fakültəsi üzrə 335, II Müalicə-profilaktika fakültəsi üzrə 332, Stomatologiya fakültəsi üzrə 280, Əczaçılıq fakültəsi üzrə 125, İctimai səhiyyə fakültəsi üzrə 70, o cümlədən Hərbi tibb fakültəsini hərbi həkim ixtisası üzrə 76, hərbi feldşer ixtisası üzrə 13 – ümumilikdə 1231 nəfər bitirib. Onlardan 88 nəfəri fərqlənmə diplomuna layiq görülüb. Məzunların 319 nəfəri isə xarici ölkə vətəndaşlarıdır.

Arif MƏMMƏDLİ
Qabil ABDULLAYEV

İlk dəfə iki ixtisas üzrə magistr buraxılışı olub

Ümumilikdə 3 ixtisas üzrə 31 nəfər magistr dərəcəsinə layiq görülüb

Azərbaycan Tibb Universitetində 2021/2022-ci tədris ili üçün magistratura təhsil pilləsində yay sessiya imtahanları yekunlaşıb. İmtahanlarda 3 əsas (əczaçılıq, klinik psixologiya, səhiyyə menecmenti) ixtisas olmaqla, 5 alt ixtisaslaşma (əczaçılıq kimyası, farmakoqnoziya, toksikoloji kimya, əczaçılıq texnologiyası, əczaçılığın təşkili) üzrə 1-ci kurslarda toplam 40 fəndən biliklər qiymətləndirilib.

İxtisaslar üzrə əsas fənlərdən imtahanlar bilet üzərindən şifahi olmaqla, canlı formatda müvafiq kafedralarda təşkil olunub. Yalnız əczaçılıq ixtisasında tədris olunan Əczaçılığın tarixi və metodologiyası fənni üzrə imtahan test mərkəzində reallaşıb.

2021/2022-ci tədris ilində magistratura təhsil pilləsində 2-ci kursu bitirən 31 nəfər (əczaçılıq ixtisası üzrə 15 nəfər, klinik psixologiya üzrə 10 nəfər, səhiyyə menecmenti üzrə 6 nəfər) dissertasiya işlərini müdafiə edərək magistr dərəcəsinə layiq görülüb. Bu il ilk dəfə olaraq universitetimizdə magistr dissertasiyaları plagiat proqramında yoxlanılıb və nəticələr qənaətbəxş olub.

Onu da qeyd edək ki, bu, ATU-da klinik psixologiya və səhiyyə menecmenti ixtisasları üzrə magistratura pilləsində ilk buraxılışdır.

Onlardan səhiyyə menecmenti ixtisası üzrə magistrantların dissertasiya işlərinin müdafiəsi İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında keçirilib. Müdafiə prosesində İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvləri ilə yanaşı, ATU-nun Müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev, İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, münaqişələrin idarəolunması, menecmentdə liderliyin rolu, tibbi marketinqin əsasları kimi müasir problemlər də dissertasiya işlərinin əsas mövzularından olub.

Müdafiə zamanı məlumat verilib ki, 2020-ci ildən etibarən kafedrada I və II kurs tələbələri səhiyyə menecmenti ixtisası üzrə təhsil alırlar. Magistr təhsilinin dissertasiyasının müdafiəsinə hazırlıq işi kafedranın professor və müəllimlərinin elmi rəhbərliyi ilə aparılır. Bu məqsədlə magistrlər üçün son iki ildə kafedrada 2 dərslik və bir neçə metodiki vəsait hazırlanıb çap edilib. Nəzərə çatdırılıb ki, bu yaxınlarda kafedranın əməkdaşları tərəfindən hazırlanmış "Səhiyyə menecmenti. Testlər" adlı metodiki vəsait-

Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova və şöbə müdirinin müavini, dosent Əfsanə Məmmədova da iştirak ediblər. Magistrantlar öz çıxışlarını prezentasiya formasında təqdim edərək, onlara verilən sualları hərtərəfli cavablandırıblar. Rəyçilərin fikirləri iştirakçılar tərəfindən dinlənilərək mövzu ətrafında geniş diskussiyalar aparılıb.

Təqdim olunan dissertasiya işlərinin mövzuları kafedranın 5 İlik elmi-tədqiqat işinin planına uyğun olaraq ictimai sağlamlığın və səhiyyə sisteminin aktual problemlərinə həsr edilib. Bundan başqa, işgüzar karyera və mümkün olan də menecmentin bir çox məsələləri test şəklində öz əksini tapıb.

Magistrantların iki il ərzində elmi-tədqiqat hazırlığı elmi proqramın rəhbəri, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov, elmi rəhbərlər - həmin kafedranın professorları Anar Ağayev və Musa Ələkbərov, dosentlər Kamran Babayev, Rəna Nağıyeva və Yaqut Hacıyeva tərəfindən həyata keçirilib.

İyulun 8-də Azərbaycan Tibb Universitetində 2021/2022-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyası başa çatıb. İmtahanların gedişi ilə bağlı məlumat əldə etmək üçün ATU-nun İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova ilə əlaqə saxladıq.

Yaz semestr imtahanları sona çatıb

Ülkər Cəfərova: Kafedralar tərəfindən test bankı üçün suallar bu dəfə daha keyfiyyətli hazırlanmışdı

Onun bildirdiyinə görə, cədvələ uyğun olaraq yay imtahan sessiyasına iyunun 1-dən start verilib: "İyulun 4-də başa çatmalı olsa da, üzrlü səbəblərdən imtahanda iştirak etməyənlər və ya akademik borcu olanlar var idi. Ona görə də iyulun 6-dan 8-dək əlavə imtahanlar təşkil etməli olduq. İyunun 3-dən etibarən isə paralel olaraq, buraxılış kurslarda təkrar dinləmələr keçirildi. Eyni zamanda sessiya müddətində magistrlərdən beş ixtisası birləşdirən bir fənn imtahanı götürdük. Universitet həyatında ilk dəfə idi ki, belə bir formatda imtahan təşkil olunurdu.

Qeyd edim ki, istifadə etdiyimiz proqram Elektron Tədris Sisteminə daxil edilib, bütün bakalavrları əhatə edir. Tələbənin davamiyyəti, elektron jurnal, o cümlədən nəticələr də birbaşa sistemə daxil edilib. Bütün imtahanlarımız isə www.amu.edu.az portalı üzərindən aparılıb".

Ü.Cəfərova ümumən sessiyanı qənaətbəxş hesab etdiyini dedi. Bildirdi ki, sessiya dönəmində heç bir texniki problem yaşanmayıb: "Ötən semestrlərdən fərqli olaraq, bu semestr kafedralar tərəfindən test bankı üçün suallar daha keyfiyyətli şəkildə hazırlanmışdı. Nəzarətçilər isə zallara ciddi şəkildə nəzarət edirdi. Məhz onların ayıqlığı nəticəsində ciddi qayda pozuntusu aşkarlandı. Belə ki, II Müalicə-profilaktika fakültəsinin bir tələbəsinin digərinin yerinə imtahan verdiyi müəyyən olundu. Tərəfimizdən hər iki tələbə imtahan zalından uzaqlaşdırıldı, bu barədə universitet rəhbərliyinə məlumat verildi və onlar barədə təqdimat yazıldı. Təbii ki, rəhbərlik tərəfindən həmin tələbələr barədə müvafiq ölçü götürüldü. Odur ki, tələbələri gələcəkdə bu cür pozuntulara yol verməməyə səsləyir, imtahanlarda yalnız öz bilik və bacarıqlarına güvənməyi tövsiyə edirəm".

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin əczaçılıq üzrə nümayəndə heyəti universitetimizin qonağı olub. ATU-nun Əczaçılıq fakültəsini ziyarət edən mütəxəssislər burada tədris prosesinin təşkili ilə yaxından tanış olublar.

Rusiyalı əczaçılar qonağımız olub

Fakültənin dekanı, dosent Fərəh Mədətli ilə görüş zamanı qonaqlara universitetin fəaliyyəti, əldə olunan nailiyyətlər, beynəlxalq əlaqələrin təşkili, ATU-nun klinikaları və s. haqqında geniş məlumat verilib.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Sənaye əczaçılığı kafedrasının müdiri, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, professor Natalya Pyatiqorskaya isə təmsil etdiyi ali məktəb haqqında danışıb. Görüş zamanı ATU ilə bu qurum arasında əməkdaşlıq istiqamətləri haqqında müzakirə aparılıb. Sonda qonaqlara xatirə hədiyyələri təqdim olunub.

Görüşdə Əczaçılıq fakültəsinin dekan müavini Esmira Hacıyeva, Farmakoqnoziya kafedrasının dosenti Nərgiz Məmmədova, Farmakologiya kafedrasının dosenti Svetlana Babayeva, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Sənaye əczaçılığı kafedrasının dosenti Q.Brkiç, Tula əczaçılıq fabrikində innovasiya layihələri üzrə direktor müavini Y.E.Bezçinskiy, Sənaye əczaçılığı kafedrasının assistenti Y.İ.Nesterkina iştirak ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti ATU-nun Əczaçılıq fakültəsinin kafedraları, laboratoriyaları ilə tanış olub, professor-müəllim heyəti ilə fikir mübadiləsi aparıb.

Günel ASLANOVA

Tədris Terapevtik Klinikada Tibbi Şuranın yekun iclası keçirilib

Tədris Terapevtik Klinikada keçirilən Tibbi Şuranın yekun iclasında klinikanın may və iyun aylarındakı fəaliyyəti qiymətləndirilib və qarşıdakı dövr üçün vəzifələri müzakirə olunub.

Yığıncağı giriş sözü ilə açan klinikanın direktoru, professor Surxay Musayev tədris ilinin yekunlaşması münasibətilə kollektivi təbrik edib, uğurlar arzulayıb.

Ardınca klinikanın müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyeva klinikanın may, iyun aylarına olan hesabatı ilə çıxış edib. O, həmçinin 2021-2022 tədris ili ərzində müəssisənin tibbi fəaliyyəti, klinikada keçirilən və maraqla qarşılanan seminarlar, ambulator və stasionar xəstə qəbulu, mövcud çətinliklər barədə də ətraflı məlumat verib.

Hesabatdan sonra çıxış edən professor S.Musayev klinikanın işinin təşkili, qarşıda duran məsələlər və növbəti tədris ilində klinikanın fəaliyyət planı haqqında ətraflı danışıb. O, klinikada fizioterapiya, ağrı, insult mərkəzlərinin yaradılması, sümük iliyi transplantasiyasının həyata keçirilməsi istiqamətində atılacaq addımlar haqqında geniş məlumat verib. Bu yönd görülən işlərdən danışan professor qarşıya qoyulan yeni hədəflərə çatmaq üçün yay aylarında və yeni tədris ili boyunca da fəaliyyətin davam etdiriləcəyini bildirib.

Gələcək tədqiqatçıların yolu Tələbə Elmi Cəmiyyətindən keçir

Müşfiq Həsənov: Tələbələrlə ardıcıl iş aparılır, müəllimləri həvəsləndirmək üçün isə təqaüd təklifi irəli sürülüb

Məlum olduğu kimi, bütün ali məktəblərin prioritet istiqamətlərindən biri də elmi fəaliyyətdir. Bu sahədə ilk addımlar isə yaradıcı tələbələri və onların fəaliyyətinə rəhbərlik edən professor-müəllim heyətini, elmi işçiləri birləşdirən, könüllü ictimai təşkilat olan tələbə elmi cəmiyyətlərində atılır. Tələbə Elmi Cəmiyyətinin işini yüksək səviyyədə təşkil edən ali məktəblər arasında Azərbaycan Tibb Universitetinin xüsusi yeri var.

Bu barədə daha ətraflı məlumatı bizimlə ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov bölüşüb. Universitetdə təhsil alan hər bir tələbənin TEC-in üzvü ola bildiyini deyən müsahibimiz qeyd edib ki, elmi tədqiqata ən çox maraq göstərən kontingent təhsil nəticələri yüksək olan tələbələrdir. Təmsil etdiyi ali məktəbin ilk növbədə istedadlı, ixtisaslaşmış kadrlar yetişdirdiyini vurğulayan M.Həsənov, bu baxımdan TEC-in üzərinə mühüm vəzifələr düşdüyünü bildirib: "Biz cəmiyyət üçün təkcə həkim yox, eyni zamanda şəxsiyyət yetişdiririk. Ona görə də TEC-də fəaliyyət göstərən tələbələrə həm universitet rəhbərliyi, həm Tələbə Elmi Cəmiyyəti şurası, həm də kafedraların müəllimləri tərəfindən xüsusi diqqət ayrılır".

Onun sözlərinə görə, hər ilin sentyabr ayından başlayaraq universitetə daxil olan tələbələrlə ardıcıl iş aparılır. Belə ki, elmi tədqiqata həvəsi olan tələbələr fakültələrin bazasında olan kafedralarda fəaliyyət göstərən tələbə elmi cəmiyyətlərinin dərnəklərinə dəvət edilir: "Onlara elmi mövzular verilir. Həmin tələbələr mart ayına qədər mövzularına uyğun olaraq araşdırmalarını həyata keçirir və tamamlayırlar. Öncə Tələbə Elmi Cəmiyyətinin kafedralarda keçirilən konfranslarında çıxış edirlər. Bu zaman elmi işin aktuallığı, yeniliyi, praktik tətbiqi, tələbənin danışıq keyfiyyəti, elmi mövzu üzərində sərbəst işləmək qabiliyyəti kafedraların müəllimləri tərəfindən qiymətləndirilir və bu kriteriyalara cavab verən məruzəçilər fakültə elmi cəmiyyətlərinin konfranslarında, daha sonra universitetin Tələbə Elmi Cəmiyyətinin yekun elmi konfransında iştirak etmək hüququ qazanırlar. Burada da yüksək nəticələr əldə edən tələbələrin beynəlxalq konfranslarda iştirakı təmin olunur".

Rektor, professor Gəray Gəraybəylinin TEC-in fəaliyyətini daim diqqətdə saxladığını, tədqiqatçı tələbələrə xüsusi qayğı göstərdiyini söyləyən M.Həsənov, bu yaxınlarda iki tələbəmizin Tacikistanda keçirilən beynəlxalq konqresdən qalibiyyətlə qayıtmasını da məhz bu qayğının nəticəsi kimi dəyərləndirib. May ayının sonunda fakültə tələbə elmi cəmiyyətlərinin konfranslarının yekunlaşdığını deyən TEC-in elmi rəhbəri onu da vurğulayıb ki, artıq ən yaxşı göstəricilərə malik 6 tələbəmiz iyunun 18-21-də Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibb Forumunda elmi məruzələrlə çıxış edib".

O, innovativ fəaliyyətin gücləndirilməsini, tələbələrimizin xüsusi təhsil proqramlarında iştirakını, həmçinin universitetin professor-müəllim heyəti tərəfindən aparılan tədqiqatların praktik tətbiqinə uyğun olan araşdırma xarakterli işlərin tələbələrə verilməsini də zəruri hesab edir: "Biz təklif etdik ki, hər kafedrada hər müəllimin il ərzində bir tələbə hazırlamaq və həmin tələbələri universitetin konfranslarına, yaxud da forumlara təqdim etmək imkanı olsun".

TEC-in effektivliyini daha da artırmaq üçün layihələr hazırladıqlarını bildirən M.Həsənov diqqətimizə çatdırıb ki, universitetə daxil olan tələbələrin qeydiyyatı zamanı TEC-in masasını da yerləşdirməyi düşünürlər: "Orada ilkin tanışlıq prosesini həyata keçirəcəyik. TEC-in fəaliyyətini əks etdirən broşurlar, bukletlər vasitəsilə universitetə ilk dəfə qədəm qoyan tələbələri məlumatlandıracaq, onları üzvlüyə qəbul edəcəyik. Bu layihənin icrasına kafedralardan başladıq. Təsadüfi deyil ki, bu il Tacikistandan qalib qayıdanlar da aşağı kurs tələbələri idi. Yeniliklərdən biri də budur ki, artıq Bakı şəhərində yerləşən orta məktəblərin yuxarı siniflərində də seçim aparırıq. Həmin məktəblərin yuxarı sinif şagirdləri ilə bizim TEC arasında əməkdaşlıq yaradılıb. Seçilən şagirdlər ATU-nun Elmi Tədqiqat Mərkəzində eksperimental elmi araşdırmalar aparırlar. Onlar Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Sabahın alimləri" elmi konfransında uğurlu nəticələrə imza atıblar. Artıq digər regionlardan da bizə müraciətlər gəlir. Həmin şagirdlər də təbii ki, Azərbaycan Tibb Universitetində oxumağı arzulayanlardır. Beləliklə, təbliğata orta məktəbdən başlamış oluruq. Görkəmli tibb alimləri ilə görüşləri də intensivləşdirmişik. Eyni zamanda internet saytının yaradılmasını da nəzərdə tutmuşuq. Bu layihələri bir qədər də təkmilləşdirməyə çalışırıq.

Tələbələrin elmə verdiyi töhfə həm də müxtəlif konqreslərdə, müsabiqələrdə, o cümlədən qrant layihələrində iştirakla, nüfuzlu jurnallarda məqalələrin çap olunması ilə də xarakterizə edilir. Universitet daxilində buna nail olmuşuq. Tələbələr elmi araşdırmalarını "Sağlamlıq" jurnalında çap etdirə bilirlər. İldə bir dəfə TEC-in jurnallarını buraxmaq planımız da var. Diplomlar, sertifikatlar, pul mükafatları da TEC-in effektivliyinin əsas göstəricilərindəndir".

M.Həsənov onu da bildirib ki, TEC-ə kütləvi tələbə axınının olmasına baxmayaraq, müəllimlər arasında bu işə həvəs göstərənlər kifayət qədər deyil. Ona görə də müəyyən həvəsləndirmə metodlarının tətbiqi məqsədəuyğundur. Bu nöqteyi-nəzərdən, beynəlxalq forumlarda, konfranslarda qalibiyyət əldə edən tələbələrin özlərinə və onların elmi rəhbərlərinə akademik bir təqaüd verilməsi təklifi irəli sürülüb. Ölkə daxilində və xaricdə olan universitetlər arasında tələbə elmi cəmiyyətinin əlaqələrini gücləndirərək müştərək tədbirlər həyata keçirmək də prioritet məsələlərdəndir.

Məşhur alimlərimizin böyük əksəriyyətinin vaxtilə TEC-də formalaşdığını söyləyən M.Həsənov, möhkəm bir təmələ söykənən bu ənənənin indi də davam etdiyini vurğulayıb və əmindir ki, burada qazanılan təcrübə gənc tədqiqatçıların gələcəkdə yüksək ixtisaslı mütəxəssis, istedadlı həkim, savadlı alim kimi yetişməsində əhəmiyyətli rol oynayacaq.

"Mən bunu necə edirəm" layihəsinin 17-ci kursu keçirilib

Qalxanabənzər vəzi əməliyyatlarında sinir monitorinqi rezidentlərə canlı nümayiş olunub

ATU-nun Tədris Cərrahiyyə Klinikasında I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı, Rezidentura şöbəsinin, eləcə də TCK-nın dəstəyi ilə "Mən bunu necə edirəm" layihəsi çərçivəsində rezidentlər üçün növbəti mövzuda - "Qalxanabənzər vəzi əməliyyatlarında sinir monitorinqi" adlı təlim-treninq kursu keçirilib.

Adıçəkilən kafedranın müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov tədbiri açaraq, əvvəlcə kafedranın professoru Eldar Əliyevi 60 illik yubileyi münasibəti ilə təbrik edib və ona işlərində uğurlar arzulayıb.

Sözünə davam edən professor N.Bayramov bildirib ki, kafedra tərəfindən həyata keçirilən bu silsilə layihəyə tədris ilinin əvvəlindən başlanılıb və çox uğurlu olub. Layihənin həm həkimlər, həm də rezidentlər üçün səmərəli olduğunu vurğulayan professor qeyd edib ki, bugünkü kurs "Mən bunu necə edirəm"in sayca 17-ci toplantısıdır.

Tədbirdə çıxış edən Türkiyənin MedFliy şirkətinin nümayəndəsi Murat Kiçikörsüz sinir monitorinqi cihazının iş prinsipi haqqında ətraflı məlumat verib. Bildirib ki, qalxanabənzər vəzi əməliyyatında bu cihazın funksiyası səsi qorumaqdan ibarətdir. Çünki səs

tellərinə gedən sinirlər qalxanabənzər vəzinin arxasından keçir. Həmin sinirlərin funksional vəziyyəti məhz bu cihaz vasitəsilə müəyyən edilərək qorunur. Beləliklə də xəstədə əməliyyatdan sonra hər hansı bir dəyişiklik baş vermir.

Bundan sonra həmin cihazın tətbiqi ilə I Cərrahi xəstəliklər kafedrasının assistenti, endokrinoloq-cərrah Azər Hümmətov tərəfindən üç xəstə üzərində canlı şəkildə "Total trioidektomiya zamanı sinir monitorizasiyası" əməliyyatı icra olunub. Həyata keçirilən əməliyyat uğurla başa çatıb. Hər üç xəstənin səslərində əməliyyatdan sonra heç bir problem olmayıb.

Qeyd edək ki, təlim kursu professor Nuru Bayramov və həmin kafedranın assistenti Elman Əzimovun moderatorluğu ilə baş tutub.

İnsultun reabilitasiyası elmi-praktik konfransda müzakirə olunub

7-8 iyul 2022-ci il tarixində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu (ETTBİ) və Azərbaycan Tibb Universitetinin (ATU) birgə təşkilatçılığı, Azərbaycan Fizioterapiya və Reabilitasiya Assosiasiyası və Milli Nevroloqlar Assosiasiyasının dəstəyi ilə "İnsultun Reabilitasiyası Modul-1" adlı elmi-praktik konfrans keçirilib.

ETTBİ-nin Elmi işlər üzrə direktor müavini, professor Sədaqət Hüseynova İnstitutun elmi istiqamətləri haqqında məlumat verdikdən sonra "İnsultdan sonra reabilitasiyaya yeni yanaşmalar" mövzusunda çıxış edib.

Konfransda Eskişehir Osmangazi Universitetinin professoru dr. Serhat Özkan, Varşava Psixiatriya və Nevrologiya İnstitutunun nümayəndəsi dr. İvona Sarzinska-Dlugosz, Avropa İnsult Təşkilatının (ESO) Reabilitasiya departamentinin sədri Aksel Kohlmetz məruzəçi kimi, TƏBİB-in Strateji inkişaf departamentinin rəhbəri Yaqut Qarayeva, Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin professoru Fuad Həsənov, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının müdiri Aytən Məmmədbəyli, Həkimlərin Təkmilləşdirmə İnstitutunun Nevrologiya və klinik neyrofiziologiya kafedrasının müdiri Rəna Şirəliyeva qonaq qismində iştirak ediblər.

İki gün davam edən konfransın təşkilinin məqsədi tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu sahədə onları yeniliklərlə tanış etmək olub.

Konfransda açılış nitqi ilə ETTBİ-nin direktoru, tibb üzrə fəlsəfə doktoru Pərvin Əkbərov çıxış edib. P.Əkbərov konfrans iştirakçılarına İnstitutun tarixi haqda qısa məlumat verərək, "COVID-19-dan sonra insult riski və bunun üçün qabaqlayıcı reabilitasiya tədbirləri" mövzusunda danışıb.

Sonda konfrans iştirakçıları sertifikatlarla və davamlı tibbi təhsil (DTT) kredit balları ilə təltif olunublar.

Müharibənin yaralarını sağaldanlar

Oktay Mehtiyev: Azərbaycan Könüllü Həkimlər Assosiasiyası bu gün də şəhid ailələri və qazilərin xidmətindədir

Müharibə çoxdan bitsə də, hələ yaraları tam sağalmayıb. Sağalmayan yaraların isə həmişə şəfqətli əllərə ehtiyacı var. Müharibə başlayanda ağxalatlılar ön və arxa cəbhədə necə fədakarlıqla çalışırdılarsa, indi də öz missiyalarını eyni əzmkarlıqla davam etdirirlər. Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının (AKHA) sədri, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oktay Mehtiyevlə söhbətləşərkən bu qənaətimizdə yanılmadığımıza bir daha əmin olduq.

O, rəhbərlik etdiyi ictimai qurumun müharibənin ilk günündə - 2020-ci il sentyabrın 27-də yaradıldığını, müharibə başlayan kimi həkim həmkarları ilə birgə könüllü olaraq ön cəbhəyə yollandığını deyir. Əvvəlcə Gəncə Beynəlxalq Hospitalında cərrah kimi fəaliyyət göstərir, həmçinin könüllüləri ora cəlb edir. Qısa müddətdən sonra Qarabağın şimal istiqamətində yaralıların sayının nisbətən az olması nəzərə alınır və könüllülərdən ibarət əsas heyət Füzuli Diaqnostika Mərkəzinə toplanır: "Burada vəziyyət gərgin idi. Yaralılar çox gəlirdi. Tibbi yardıma daha çox ehtiyac vardı. 250 nəfərdən ibarət Stomatoloqlar qrupu orada bütün lazımi ləvazimatlarla təchiz olunmuş 3 anbar təşkil etmişdi. Yaralılara həm ilkin və cərrahi yardım göstərilir, həm də onların təxliyəsi həyata keçirilirdi. Füzuli Diaqnostika Mərkəzində fəaliyyət göstərən həkimlərin demək olar ki, 90-95 faizi könüllülər idi".

O.Mehtiyevin sözlərinə görə, könüllü həkimləri birləşdirən cəmiyyətin üzvləri noyabrın 13-ə kimi Füzuli Diaqnostika Mərkəzində yaralılara ixtisaslaşmış tibbi yardım göstəriblər. Bu müddətdə düzgün çeşidləmə aparmaqla, vaxtında düzgün cərrahi müdaxilə etməklə çoxsaylı insan itkisinin qarşısını alıblar. Bununla da bir çox əsgər və zabitlərimizə yenidən döyüş meydanına qayıtmaq imkanı qazandırıblar. Ən mürəkkəb beyin əməliyyatları, eyni zamanda qarın boşluğu əməliyyatları icra olunub. Bundan əlavə, travmatoloji zədələnmələr aradan qaldırılıb. Müharibə rəşadətli ordumuzun şanlı qələbəsi ilə bitəndən sonra da həkimlərimiz öz xeyirxah missiyalarını davam etdiriblər. Azərbaycan Tibb Universitetinin əməkdaşları ilə yanaşı, özəl klinikalarda çalışan yüksək ixtisaslı həkimlər bu gün də AKHA-nın xətti ilə şəhid ailələrinin və qazilərin xidmətindədir.

Məlumdur ki, işğaldan azad olunmuş ərazilərdə milli ordumuzun hissələri yerləşdirilib. Daha üstün infrastruktura malik Hadrutda stomatoloji məntəqənin yaradıldığını söyləyən AKHA-nın sədri bildirir ki, açılışında ölkə başçısının da iştirak etdiyi Cəbrayıl hospitalında, Şuşada, Zəngilanın Bartaz, Qubadlının Xanlıq və Qəzyan, Laçının Bozlu kəndlərində də stomatoloji kabinetlər istifadəyə verilib: "Həmin bölgələrdə ümumilikdə 10 mindən, Şuşada 4500-dən, Hadrutda isə 2300-dən çox əsgər və zabitə stomatoloji yardım göstərdik. Əlbəttə, həmin kabinetlərdə fəaliyyətimiz təkcə stomatoloji xidmətlə məhdudlaşmadı. Mən I Qarabağ müharibəsinin də iştirakçısı olaraq öz təcrübəmdən bilirəm ki, ilkin dövrdə dəri və infeksion xəstəliklərin yayılma ehtimalı artır. Ona görə də ATU-nun Dəri-zöhrəvi xəstəlikləri kafedrasının əməkdaşlarını, yay aylarında isə günvurmaların, zəhərlənmələrin çoxaldığını nəzərə alaraq, reanimatoloqları prosesə cəlb etdik. Onu da deyim ki, təkcə praktiki fəaliyyətlə məşğul deyilik, hərbi hissələrdə olan həkim kontingentinə, feldşerlərə treninqlər də keçirik. Bizim bütün xidmətlərimiz pulsuzdur, təmənnasızdır".

Cəmiyyətin ən böyük layihələrindən biri də Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə həyata keçirdiyi "Regionlarda şəhid ailələrinin və qazilərin sağlamlığı" layihəsidir. 18 rayonu əhatə edən bu layihə çərçivəsində şəhid ailələri, qazilər müayinə olunur, zərurət yaranarsa, Bakı şəhərinə dəvət edilirlər. Növbəti mərhələdə başqa patologiya aşkarlanarsa, təkrar müayinələr, əməliyyatlar aparılır. Bu əməliyyatların böyük əksəriyyəti ATU-nun Tədris Cərrahiyyə Klinikasında icra olunur. İndiyə qədər 1800 şəhid ailəsi müayinədən keçib, yüzlərlə cərrahi əməliyyat icra olunub.

Müsahibimiz cəmiyyətin layihələrində yaxından iştirak edən Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayev, dosenti Elman Tağıyev, Qulaq, burun-boğaz kafedrasının müdiri, professor Vəfa Pənahian, lor həkimi Rövşən Məhərrəmov, Psixiatriya kafedrasının assistenti İkram Rüstəmov, professor İslam Mahalov, uroloqlar Vasif İsmayıl və Timurçin Məhərrəmbəyli, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirova, Travmatologiya və ortopediya kafedrasının assistenti Aslan Məmmədov, Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva, həkimi Ayan Məmmədova və digərlərinin adlarını məmnunluqla çəkir. Onların şəhid ailələrinə və qazilərimizə dəstəyini yüksək qiymətləndirir.

Universitetimizdə AKHA-nın tələbə təşkilatının yaradılması da təqdirəlayiq haldır. Tələbə könüllülər xüsusi fəallıqları ilə seçilirlər. Müalicə işi fakültələrinin V-VI, Stomatologiya fakültəsinin IV-V kurs tələbələri həftənin şənbə və bazar günlərində, tətillərdə həkim köməkçisi kimi müxtəlif rayonlara, eləcə də işğaldan azad olunmuş ərazilərə gedir, hər dəfə də 200-300 şəhid ailəsinin, həmçinin qazilərin müayinəsində iştirak edirlər. Ölkəmizin tanınmış mütəxəssisləri ilə bərabər çalışmaq həm gənclərimizdə vətənpərvərlik ruhunun yüksəlməsinə, həm də onların peşə seçimlərinə müsbət təsir göstərir.

"Regionlarda şəhid ailələrinin və qazilərin sağlamlığı" layihəsində 500-dən çox həkimin iştirak etdiyini xatırladan O.Mehtiyev, hər həkimin əhatəsində ən azı 5-10 nəfər tibb işçisinin olduğunu, nəticədə böyük bir rəqəm alındığını vurğulayır.

Qalib bir ordunun əsgər və zabitlərini yetişdirən ailələrin və bədənlərində müharibənin yaralarını gəzdirən qazilərin sağlamlığını qorumaq həm də bir vicdan məsələsidir, mənəvi borcdur. Eyni zamanda qürurverici hissdir. Bu müqəddəs işi könül xoşluğu ilə yerinə yetirən fədakar həkimlərimizi tanıtmaq, başqalarına nümunə göstərmək də bizim borcumuzdur.



Yastıpəncəlilik müalicə olunan patologiyadır

Dosent Paşa Mehdiyev deyir ki, dar və hündürdaban ayaqqabılar da yastıpəncəliliyə səbəb ola bilər

Elə patologiyalar var ki, ilk baxışdan diqqət çəkmir və ciddi problem hesab olunmur. Əslində isə bu cür hallar insanlarda ciddi narahatlıq yaradır, bəzən fiziki aktivliyi məhdudlaşdırır. Belə patologiyalardan biri olan yastıpəncəlilik haqda danışacağıq. Yastıpəncəlilik nədir, hansı əlamətlərlə özünü büruzə verir və yaratdığı diskomfortu aradan qaldırmaq üçün məsləhət görülən profilaktik tədbirlər varmı?

Bu suallara aydınlıq gətirmək məqsədilə ATU-nun Fizioterapiya və reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyevə üz tutduq. Paşa müəllim bildirdi ki, yastıpəncəlilik pəncənin eninə və boylama tağının zəifləyib sallanması ilə xarakterizə olunan forma dəyişikliyidir: "Ayaq qövsü (tağ) insanın yeriməsində və addım atmasında birbaşa rol oynayır. Pəncə tağının mövcudluğu bədən ağırlığının ayaqda bərabər paylanmasına kömək edir. Yeriş zamanı pəncənin müxtəlif səthlərə uyğunlaşması üçün tağlar elastik və güclü olmalıdır. Ayaq vətərləri gərgin lent şəklində pəncə və daban sümüklərinə yapışaraq pəncə tağı deyilən hündürlüyü əmələ gətirir. Vətərlər kifayət qədər güclü olmadıqda, ayaq altındakı qövs azalır və yastıpəncəlilik yaranır. Belə vəziyyət həm böyüklərdə, həm də uşaqlarda müşahidə oluna bilər. Bütün uşaqlar yastıpəncəliliklə doğulurlar. Pəncə tağı uşaqlarda 3 yaşdan sonra tədricən formalaşmağa başlayır. Vətərlərin möhkəmlənməsi və qövsün meydana gəlməsi üçün vaxt lazımdır. Bəzən körpələrin ayağında olan əlavə piy toxuması tağı gizlədə bilər".



P.Mehdiyev yastıpəncəliliyin bədən çəkisi ilə birbaşa əlaqəsi olduğunu da dedi. Qeyd etdi ki, bədən çəkisi artdıqca, pəncəyə düşən ağırlıq hesabına boylama yastıpəncəlilik özünü daha kəskin büruzə verir. Bu patologiyaya əsasən qadınlarda rast gəlinir. Boylama yastıpəncəlilik 16-25, eninə yastıpəncəlilik isə 35-50 yaşlarda daha çox müşahidə edilir.

Onun sözlərinə görə, anadangəlmə, travmatik, paralitik, raxitik və statik formaları olan yastıpəncəliliyin yaranma səbəbləri içərisində dar və narahat ayaqqabılar geyinmək, uzun müddət hündürdaban ayaqqabıda hərəkət etmək də var. Yastıpəncəliliyin diaqnozu ortoped həkim tərəfindən vizual və podoskopik, həmçinin 2 proyeksiyada rentgenoqrafiya ilə qoyula bilər.

Pəncə üzərində oturan zaman müvazinətin itirilməsi, baş barmaqda sümük çıxıntısı (hallux valqus), onurğa əyriliklərinə və diz oynaqlarında artrozun inkişafına səbəb olma, estetik görünüşün və qamətin pozulması, dırnağın ətə batması və uzun müddət piyada gəzərkən baldır əzələlərində ağrıların olmasını yastıpəncəliliyin əsas əlamətləri kimi xarakterizə edən həkim onu da bildirdi ki, bu patologiyanın dərman müalicəsi yoxdur, müəyyən profilaktik tədbirlər görməklə qarşısını almaq olar: "Bunun üçün düzgün yerişin formalaşdırılması, yeriyərkən pəncələri aralı qoymamaq lazımdır ki, pəncənin iç əzələlərinə həddən artıq yük düşməsin, əks halda pəncənin bağ sistemi zəifləyir. Uzun müddət ayaq üstə durub işləyərkən ayaqlara düşən ağırlığı düzgün bölüşdürmək, hündürlüyü 4 sm-dən çox olmayan ayaqqabı geyinmək və ayaqqabı içliyini düzgün seçmək də vacibdir".

Həkimin sözlərinə görə, uzun müddətli ayaqüstü işlər zamanı ayaqqabıda supinator içliklərin istifadəsi, günün sonunda ayaq vannaları və pəncənin masajı, nahamar döşəmədə (daşlı, çınqıllı, qumlu sahələr) pəncə-daban üzərində növbəli yeriş də profilaktik cəhətdən faydalıdır. Konservativ müalicə nəticəsiz olan zaman isə cərrahi müalicə məsləhətdir: "İkinci və daha artıq dərəcəli yastıpəncəlilikdə cərrahi müalicə aparılır və bu əməliyyatın effektivliyi 99 faizdir. Əməliyyatdan sonra isə ortopedik ayaqqabıların istifadəsi tövsiyə olunur".

A.KAMRANOĞLU

◆ “İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası rəsmi olaraq 1926-cı ilin yanvarından Bakı Dövlət Universitetinin Tibb fakültəsinin nəzdində fəaliyyətə başlamışdır. Kafedranın yaradıcısı və ilk müdiri Krım universitetinin görkəmli professoru Ömər Əliyeviç Bayraşevski olmuşdur”. Bunu bizimlə söhbətində kafedranın müdiri, professor Rafiq Çobanov deyib.

96 yaşlı kafedra

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında müasir tədris metodlarından geniş istifadə olunur

Kafedra haqqında məlumat verən R.Çobanov bildirib ki, Hərbi-Tibb Akademiyasını bitirən Ö.Bayraşevski bir neçə il Avropada məşhur alimlərin yanında işləmişdi: “1930-cu ildə Tibb fakültəsi BDU-dan ayrılaraq müstəqil Azərbaycan Tibb İnstitutuna çevrilərkən bu kafedra da onun tərkibinə daxil olub. 1932-ci ildə Ö.Bayraşevskiyə Dağıstan Tibb İnstitutunu yaratmaq tapşırıldığına görə, o, Bakını tərk edir. Həmin ildən kafedraya Kiyev universitetinin yetirməsi, bu sahədə ilk milli kadr olan Əlibəy Əlibəyov müdir seçilir və ömrünün sonunadək bu vəzifədə çalışır. Həmin tədris ilindən kafedrada Azərbaycan dilində də mühazirələr oxunmağa başlanır.

Sözünə davam edən professor vurğulayıb ki, müharibə illərinə qədər kafedrada əhaliyə tibbi xidmətin təşkilinə dair problemlər həll olunurdu: “1940-cı ildə respublika əhalisinin ümumi xəstələnməsi və onun xarakteristikası kafedra kollektivi tərəfindən öyrənilməyə başlanılır və kafedranın adı “Səhiyyənin təşkili” olur. 1945-ci ildə görkəmli səhiyyə təşkilatçısı İ.Fel kafedraya müdir gəlir və ömrünün axırınadək bu vəzifədə çalışır. Qeyd etmək lazımdır ki, onun respublikada idarə etdiyi evako-hospitallar bazası SSRİ-də ən yaxşılardan biri hesab olunurdu. 1983-cü ildə kafedraya dosent Ə.Əhmədov, 1989-cu ildə isə kafedranın yetirməsi, dosent Ə.Ağayev müdir seçilir”.

R.Çobanovun sözlərinə görə, 2005-ci ildən indiyədək onun rəhbərliyi ilə Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin hazırlanmasına xüsusi önəm verilir. “İctimai sağlamlıq və səhiyyənin təşkili” və “Tibb tarixi” fənləri üzrə müasir tələblərə cavab verən yeni dərsliklər çap olunub: “Bu illər ərzində kafedranın tədris-metodik vəsaitlərinin və tədris proqramlarının yenilənməsi sahəsində məqsədyönlü işlər aparılıb və hazırda da bu işlər davam etməkdədir. Tədris prosesi son illər elmi cəhətdən yenidən əsaslandırılıb və metodik baxımdan məqsədyönlü formada zənginləşdirilib. Kafedrada tədris prosesi yüksək ixtisaslı mütəxəssislər tərəfindən Azərbaycan, rus və ingilis dilində aparilir. Fənnin öyrənilməsi üçün kafedrada mühazirə və təcrübə məşğələlərin təqvim-mövzu planları əsaslı şəkildə işlənib, hər mühazirə və məşğələ üçün tədris materialları elektronlaşdırılıb”.

Professor bildirib ki, tədris prosesində elektron resursların tətbiqi dərslərin keyfiyyətində mühüm irəliləyişə səbəb olub: “Belə ki, mühazirələrin gedişi zamanı slaydların nümayişi multimedia sisteminin köməkliyi ilə həyata keçirilir. Həmçinin dərs otaqlarında yerləşdirilmiş kompüterlər vasitəsilə təcrübə məşğələlərində tələbələrə dünyanın müxtəlif ölkələrində mövcud səhiyyə sistemləri, onların mahiyyəti, ictimai sağlamlığın qorunmasına verdiyi töhfələr - şəkillər, elektronoqramlar və sxemlər şəklində göstərilir”.

Qeyd edək ki, 2010-cu ildən kafedra “İctimai sağlamlıq və səhiyyənin təşkili” adlanır. Kafedra müdiri deyir ki, bir çox əməkdaşlar buradakı elmi fəaliyyətlə yanaşı, ictimai sağlamlığın digər sahələrində də elmi-tədiqatlar aparırlar: “Əməkdaşlarımız 2015-ci ildən “Emosional stress, depressiya və həyəcan hallarının yayılmasının sosial-gigiyenik aspektləri və onların xroniki qeyri-infeksion xəstəliklərin yaranmasında rolu” mövzusu üzərində işləyiblər. Bundan başqa, kafedra əməkdaşları 2016-2020-ci illərdə “Qeyri-infeksion xəstəliklərlə mübarizə” istiqamətində beş illik planı yerinə yetiriblər. Və nəhayət, kafedramızın 2021-2025-ci illərdə “Qidalanma davranışı pozğunluqlarının öyrənilməsi” mövzusu istiqamətində beş illik planı təsdiq edilib. Qeyd edim ki, son illər bütün dünyada qidalanma davranışı ilə bağlı mövzular geniş şəkildə öyrənilir. Tibb elminə məlum olduğu kimi, bu sahədə olan pozğunluqlar bir çox xəstəliklərin yaranmasında böyük rol oynayır”.

2020-ci ildən kafedrada I və II kurs tələbələri “Səhiyyə menecmenti” ixtisası üzrə təhsil alırlar. Magistr təhsilinin dissertasiyasının müdafiəsinə hazırlıq işi kafedranın professor və dosentlərinin elmi rəhbərliyi ilə aparılır. Magistrlər üçün son iki ildə kafedrada 2 dərslik və bir neçə metodiki vəsait hazırlanaraq çap edilib.

Professor bildirir ki, ictimai sağlamlığın aktual problemləri istiqamətində kafedra əməkdaşları tərəfindən əldə edilmiş elmi məlumatlar bir sıra xarici ölkələrdə çap olunub.

Hazirda kafedranın 26 əməkdaşından 24-ü akademik işçilər, o cümlədən 3-ü professor, 5-i dosent, 3-ü baş müəllim və 10-u assistentdir. Onlardan 3 nəfəri tibb elmləri doktoru, 10 nəfəri isə tibb üzrə fəlsəfə doktorudur.

Hər kəs saç əkdirə bilərmi?

Mütəxəssis saçtökülmənin səbəbləri, tipləri və çıxış yollarını açıqlayır

Müasir dövrdə tibbin əldə etdiyi nailiyyətlərdən bəhrələnərək, insanlar xarici görünüşlərində ciddi dəyişikliklər etdirə, özlərini cavanlaşdıra bilirlər. Üz və bədəninin digər nahiyələrində istəyə uyğun plastik cərrahiyyə əməliyyatlarının həyata keçirilməsi, tökülən saçın yerinə donor saçların əkilməsi və digər bu kimi üsullar tibb sahəsinin uğurlarından hesab olunur.

Bəs saçların tökülməsinin səbəbi nədir? Saçını itirmiş hər kəs özünə donor saç əkdirə bilərmi? Bunun yan təsirləri varmı? Bu və digər suallarımızı Azərbaycan Tibb Universitetinin Dermatovenerologiya kafedrasının dosenti Elşad Novruzov ətraflı şəkildə cavablandırdı. Dosent saçtökülmənin səbəbləri və tiplərindən söhbət açdı, androgenik, diffuz, ocaqlı, çapıq alopesiyalar barədə məlumat verdi. O, insanlar arasında ən çox yayılan androgenik alopesiyanın irsiyyətə bağlı, genetik olduğunu bildirdi: “Bu o deməkdir ki, belə insanların irsiyyətində tük tökülməsinə meyillilik var. Bu, kişi tipli keçəlləşmə hesab olunur və demək olar ki, saçı tökülən kişilərin 95 faizində müşahidə edilir. Belə insanlarda saç təpə və alın nahiyəsindən tökülür. Kişi tipli saçtökülməyə qadınlar arasında da rast gəlmək olur. Bu proses kişi tipli

testosteron hormonunun 5 alfa reduktas hermeti vasitəsilə dihidrotestosteron tipli hormona keçməsi ilə başlanır”.

Başın alın, təpə nahiyəsində olan tüklərin dehidrotestosteron hormonuna həssas olduğunu bildirən E.Novruzov adıçəkilən hormonun həmin nahiyələrdə tükləri zədələdiyini qeyd etdi: “Bu zaman saçların qidalanması pozulur. Bu tipli insanlar saçlarının tez-tez yağlanmasından şikayət edirlər. Saçların normadan çox yağlanması saçın qidalanmasını pozur. Doğrudur, yağlanma olmalıdır, amma norma daxilində. Piy vəzi yağı normal şəkildə ifraz edirsə, tükün qidalanması da normal olur. Normalda saç 3 gün ərzində yağlanmalıdır”.

Müsahibimiz xəstəliyi yaradan səbəb genetik olsa da, onu müəyyən qədər aradan qaldırmağın mümkün olduğunu diqqətə çatdırdı: “Əsas əlamət tükün tökülməsi, keçəlləşmədir. Saçın yağlanması, vitamin çatışmazlığı, stres, ekologiya, qidalanma və s. saç tökülməsinə səbəb olur. Tükün zədələnməsi prosesini dayandırmaq və ya ləngitmək üçün mezoterapiya prosedurları tətbiq olunur. Yağlılığın aradan qaldırılması üçün uyğun şampunlardan istifadə edilir. Bu cür insanlar daim həkim nəzarətində olmalıdır. Çünki prosesi dayandırmaq mümkün deyil, ləngitməksə olar. Amma müalicə kompleks aparılmalıdır ki, effekt versin”.

E.Novruzov qeyd etdi ki, prosesi müalicə ilə ləngitmək mümkün olmayanda, saç əkimi zərurəti yaranır. Saç əkimində isə donor tüklərdən istifadə olunur: “Donor tüklər saçı tökülən şəxsin gicgah və ənsə nahiyələrindən götürülür. Saç əkdirmək istəyənin bu nahiyələrinə baxılır və qərar verilir. Donor nahiyədə tüklərin sıxlığı önəmlidir. Bəzən əməliyyatı iki mərhələdə həyata keçiririk ki, götürülən tüklərin yeri seyrəlməsin. Birinci mərhələnin üstündən 6-8 ay keçəndən sonra əməliyyat təkrarlanır”.

E.Novruzov əkilən saçların tökülməsini də istisna etmədi: “Əslində, normal əkilən saçlar daimidir, sonradan tökülmür. Əkimin keyfiyyətli olması üçün donor nahiyədən qreftlərin düzgün götürülməsi, qulluq edilməsi həkim tərəfindən nəzarətdə saxlanılır. Əks halda, əkilən saç tökülə bilər. Nəticə bir ilin sonunda görünür”.

Mütəxəssis, həmçinin insanlar arasında alopesiya areata – ocaqlı saçtökülməyə rast gəlinməsindən də söhbət açdı. Bu xəstəliyin də genetik olduğunu bildirdi: “Belə ki, xəstəlik autoimmun proses olub stres amilinin nəticəsində əmələ gələ və ya residiv verə bilir. Bunun da ocaqlı yayılmış və universal forması olur. Əgər bədənin bütün tüklü sahələrində tüklər tökülürsə, bu, universal formadır. Belə xəstələrin müalicəsinin dermatoloq və psixoloqlarla müştərək aparılması tövsiyə edilir.

Universal saçtökülmədə isə müalicə fərqli olur. Bu zaman müəyyən göstəriciləri ayda bir dəfə kontrol etmək şərti ilə ümumi immun sistemini zəiflətməli oluruq. Nəzarət ona görə vacibdir ki, immunitet aşağı salınanda, digər xəstəliklərin üzə çıxması ehtimalı var. Onu da qeyd edim ki, saç əkilməsinin heç bir yan təsiri yoxdur. Amma yaşı 50-ni keçənlərdə, şəkərli diabeti olanlarda, qan durulaşdırıcılardan mütəmadi istifadə edənlərdə, donor nahiyəsində tükü seyrək olanlarda, AİDS, sifilis, hipertoniklərdə saçın əkilməsi əməliyyatının aparılması məqsədəuyğun hesab edilmir”.

Qabil ABDULLAYEV

Tələbə dekan

Arzusunun ardınca Şəkidən Bakıya gəldi

Yusuf Xəlil II Müalicə-profilaktika fakültəsinin 4-cü kursunu bitirdi. O, eyni zamanda adıçəkilən fakültənin tələbə dekanıdır.

Yusuf Şəki şəhər Fizika-Riyaziyyat və Humanitar Təmayüllü Liseyini qızıl medalla bitirib. Liseydə oxuduğu dövrdə aktivliyi ilə digər şagirdlərdən fərqlənib. Həm liseyin keçirdiyi tədbirlərdə, debatlarda fəal iştirak edib, həm də şagirdlərlə işin təşkilinə xüsusi maraq göstərib. Öz arzusu ilə həkim peşəsini seçib və elə bu arzu ilə də ATU-ya daxil olub. Yusuf həm də qrup nümayəndəsidir. Yaxşı musiqi duyumu var. Boş vaxtlarında gitarada ifa edir.

Qəhrəmanımız bizimlə söhbətində universitet həyatındakı fəaliyyətindən də danışdı: "Qrup nümayəndəsi olduğum üçün dekanlığa tez-tez gedir, oradakı işlərə kömək edirdim. Tələbələrlə münasibətim yaxşı olduğu üçün dekanımız İsrail Məhərrəmbəyli və dekan müavinimiz Sevinc Məhərrəmovanın təklifi ilə birləşmə nümayəndəsi seçildim. Ötən il fakültə üzrə tələbə dekanı seçilənədək Emin Hüseynovun müavini kimi fəaliyyət göstərmişəm. Ondan həm bu işin təşkilini öyrəndim, həm də dekanlıq və kafedralarla əlaqə quraraq təcrübəmi artırdım. Fürsətdən istifadə edib universitetin ictimai və sosial işləri ilə də yaxından maraqlandım, tədbirlərdə, yürüşlərdə aktiv iştirak edə bildim".

Y.Xəlil Əsasnaməyə uyğun olaraq, Elmi Şurada, iclaslarda, konfranslarda tələbələri təmsil etdiyini söylədi. Bildirdi ki, tələbələr, tələbə təşkilatları və fakültə rəhbərləri ilə birlikdə tədbirlərin və elmi konfransların təşkilinə yardımçı olur. Tələbələrin konfranslara, tədbirlərə cəlb olunması istiqamətində də lazımi işlər görür. Fakültə rəhbərliyi ilə birgə isə tələbələrin tədrisdə, ictimai işlərdə yaranan problemlərinin qaydasına qoyulmasına çalışır.

Tələbə dekan, həmçinin tələbələrlə operativ əlaqə saxlamaq üçün hər kurs üzrə qrup nümayəndələrinin olduğu vatsap qrupu təşkil edib. O, vacib məlumatları zamanında vatsap vasitəsilə bütün qrup nümayəndələri ilə paylaşır və onlardan məlumatların tələbələrə çatdırılmasını xahiş edir: "Vatsap qruplarında vaxtaşırı tələbələrin hər hansı məsələdə çətinliyi, yaxud probleminin olub-olmamasını soruşuram. Problem yaranarsa, məsələlərin operativ həlli üçün fakültə və universitet rəhbərliyi ilə əlaqəyə saxlayıram. Tələbələrin özləri də üzləşdikləri hansısa problemlə bağlı mənə müraciət edir. Mən də uyğun şəkildə həmin problemləri həll etməyə çalışıram".

Yusuf deyir ki, tədbirlərin və elmi konfransların təşkili təşkilat sədrləri və fakültə rəhbərliyi ilə birlikdə həyata keçirilir. Tədbirlərin təşkili üçün tələbələrdən rəylər toplanılır, kreativ və parlaq fikirlər, ideyalar nəzərə alınır: "Onların əhəmiyyət kəsb edən fikirləri tərəfimizdən müzakirə edilir, dəyərləndirilir və uyğun qərar verilir. Tələbələr bu və ya digər tədbirlərdə aktiv iştirak etmələri üçün həvəsləndirilir və onlara müvafiq şərait yaradılır".

Bəs tələbələrin problemləri adətən nə ilə bağlı olur? Müsahibimizin sözlərinə görə, aşağı və yuxarı kurs tələbələrinin müraciət mövzuları fərqlidir: "Aşağı kurs tələbələrinin müraciətləri daha çox universitetə adaptasiya ilə bağlı olur. Kafedra və klinikaların yerləri, tədrisin təşkili ilə bağlı məlumatlar diqqətə çatdırılır, aralıq və sessiya imtahanlarının xarakteri, qiymətləndirilmə ilə bağlı tələbələrə aydın olmayan məsələlər izah edilir. Yataqxana ilə bağlı problem olarsa, onu da lazımi şəkildə qaydasına salırıq. Yuxarı kurs tələbələri isə ən çox dərs və imtahan cədvəllərində yaranmış çətinliklərlə bağlı müraciət edirlər. Kəsri olan tələbələrin dərslərdə maksimal iştirakını təmin edir, tədris zamanı klinikalarda üzləşdikləri çətinliklərin aradan qaldırılmasına nail oluram".

Qabil ABDULLAYEV

ATU-nun əməkdaşı Qarabağda elmi simpoziumda çıxış edib

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təşkilatçılığı ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində "Şuşa ili"nə həsr edilən V beynəlxalq "Həmzə Nigari" simpoziumu keçirilib. Simpoziumun keçirilməsində əsas məqsəd Həmzə Nigarinin fikir dünyası və həyatı ilə yanaşı, keçmişdən bu günümüzə gələn mənəvi irs üzərindən Türk və İslam dünyası araşdırmalarını dəyərləndirmək idi.

Əvvəlcə Quzanlı qəsəbəsinin Muğam mərkəzində açılış mərasimi keçirilib. Tədbiri "Miras" İctimai Birliyi İdarə Heyətinin üzvü, layihənin rəhbəri Şəhla Xəlilli açaraq, simpoziumun Elmi və təşkilat komitəsi adından iştirakçıları salamlayıb və qısa məlumat verib. Simpoziumun açılış mərasimində Milli Məclisin Mədəniyyət komitəsinin sədri, millət vəkili Qənirə Paşayeva, Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun direktoru, professor Abbas Seyidov, AMEA Albanşünaslıq Mərkəzinin rəhbəri, professor Qafar Cəbiyev, Amasiya Azərbaycan Türkləri Kültür və Sanat Həmrəylik Dərnəyinin üzvləri çıxış ediblər.

Məlumat üçün bildirək ki, XIX əsrdə yaşamış Mir Həmzə Seyid Nigari Qarabağ əyalətinin Zəngəzur mahalının Cicimli kəndində anadan olub. O, sufi-mistik düşüncəsinə əsaslanan fəlsəfi əsərlər yazmış, zərurət nəticəsində doğma yurdunu tərk edərək Türkiyəyə getmiş və orada vəfat edərək Amasiyada torpağa tapşırılmışdır. Nigarinin əsərləri Şərq mistik fəlsəfəsinin – sufizmin mahiyyətinə varmağa, onu anlamağa xidmət edir.

Tədbirdə Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının dosenti Gülnarə Səfərova da iştirak edib. Onun Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının müdiri, dosent Kəmalə Pənahova ilə birlikdə hazırladığı "Orta əsr Qərb fəlsəfəsi və mistisizm" mövzusunda çıxışı maraqla qarşılanıb. Məruzədə əsas məqsəd geniş elm auditoriyasını Avropa mistisizminin görkəmli nümayəndələri ilə tanış etmək və onun səciyyəvi xüsusiyyətlərini şərh etməkdən ibarət olub.

Tədbirdə növbəti simpoziumun Həmzə Nigarinin doğulduğu Laçın rayonunun Çicimli kəndində keçirilməsi arzu edilib.

Simpoziumun sonunda tədbir iştirakçıları Ağdamda İmarət Kompleksini, Cümə məscidini, Şəhidlər xiyabanını, Şahbulaq qalasını və indiyədək heç bir elmi qrupun getmədiyi Xaçın su anbarını, Qara Pirim xanəgahını, Nigar nənə türbəsini ziyarət ediblər.

İnsan hansı maksimal temperatur və rütubətdə yaşaya bilər?

Alimlər rütubətlə birləşmədə həddindən artıq yüksək temperaturların kəskin artımından narahatdırlar. Onlar insanların bunlara necə reaksiya verdiyini və fiziki vəziyyətlərinin necə dəyişdiyini araşdırıblar.

İsti rütubətli havanı Wet Bulb Temperature (nəm termometrin temperaturu) vasitəsilə ölçmək olar – yəni, obyektin temperaturu bədəni nəm tənziflə sarılmış termometr ilə ölçülür. AZƏRTAC "Hitech"ə istinadla xəbər verir ki, adiabatik buxarlanma sayəsində nəm termometrin temperaturu havanın rütubətinin 100 faiz olduğu hallar istisna olmaqla, hər zaman quru termometrin temperaturundan aşağı olur.

2022-ci ilin may və iyun aylarında Cənubi Asiyanı bürüyən istilər zamanı Pakistanın Cakobabad şəhərində insanın adaptasiyasının nəzəri cəhətdən yuxarı həddinə yaxın olan maksimal rütubətli havanın temperaturu 33,6°C qeydə alınıb.

2010-cu ildə aparılan tədqiqat zamanı hesablayıblar ki, 35°C və 100 faiz rütubət və ya 46°C və 50 faiz rütubət yüksək təhlükəsizlik həddidir. Bu yaxınlarda bu məlumatlar laboratoriya şəraitində insanlar üzərində sınaqdan keçirilib.

Hər bir iştirakçı bədən istiliyini izləyən kiçik bir qadjeti udub. Daha sonra könüllülər xüsusi kameraya yerləşdirilib və orada yemək bişirmək və qida qəbulu kimi tanış hərəkətləri təqlid ediblər. Tədqiqatçılar ya kameradakı temperaturu, ya da rütubəti asta-asta yüksəldiblər və eksperiment iştirakçısının bədən temperaturunun nə vaxt yüksəlməyə başladığını izləyiblər.

Gənc sağlam kişilər və qadınlar üzərində aparılan araşdırma nəticəsində ətraf mühitin yuxarı həddinin nəzəri 35°C-dən də aşağı olduğu aşkar edilib.

Təsdiq edilmiş hədd: 100 faiz rütubətdə 31°C və ya 60 faizdə 38°C.

Avropa Dərman Vasitələri Agentliyi yaşı 60-dan çox olan insanların koronavirusa qarşı ikinci buster dozası ilə peyvənd olunmalarını tövsiyə edib. Bu doza vaksinin üçüncü dozasından 4 ay sonra vurulmalıdır. "Euronyus" agentliyi xəbər verir ki, bu tövsiyə yaşı 60-dan aşağı olan sakinlərə hələlik aid edilmir.

Avropada koronavirusa qarşı ikinci buster dozası tövsiyə edilib

Tənzimləyicinin bəyanatında bildirilir ki, riyazi modelləşdirmə yaşı 60-dan çox olan insanların qorunması üçün ikinci buster dozasının aşkar üstünlüklərini göstərib.

Avropa İttifaqının səhiyyə üzrə komissarı Stella Kiriakides öz tviter səhifəsində yazıb: "Mən hamını mümkün qədər tezliklə peyvənd olunmağa çağırıram. Vaxt itirmək olmaz. Bizim vaksinlər xəstəliyin ağır keçməsindən və xəstəxanaya düşməkdən yaxşı qoruyur".

Son bir neçə həftədə Avropa ölkələrində koronavirusa yoluxma hallarının sayı kəskin artıb. Epidemioloqların fikrincə, buna səbəb "omikron" variantının daha yoluxucu olan BA-5 formasıdır. Hazırda Avropada hər gün 700 minə yaxın yeni xəstə qeydə alınır.

Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi ATU-nun Təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadəyə qardaşı

Samir Əlizadənin

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları ATU-nun Təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadəyə qardaşı

Samir Əlizadənin

vaxtsız vəfatından kədərləndiklərini bildirirlər və dərin hüznlə başsağlığı verirlər.

I Müalicə-profilaktika fakültəsinin dekanlığı dekan müavini Sevinc Məhərrəmovaya qayınatası

Aydın Məhərrəmovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Etibarsız sayılır

Seyidli Zəhra Mirsamir qızı (qrup 120R2b); Mohamad Adas Walid (qrup 180A); Tina Kianfard (qrup 717 İ6); Mohammad Al-dawoodi (qrup 717 İ6); Hasanian Hussein (qrup 717 İ6); Amin Daneshvar Sinanın (qrup 421A5a) tələbə bileti; Hacı Güngör Bilal oğlunun (qrup 118A5b) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 1925
Sayı 2250